# *Xalq yazıçısı Afaq MƏSUD:*

# "Gözün aydın olsun, əziz xalqım!"

**Noyabrın 10-u Azərbaycan tarixinə ilk Milli Qələbə Günü kimi əbədi həkk olundu. Bütün xalqımızı bu müqəddəs gün münasibətilə ürəkdən təbrik edirəm!**

AZƏRTAC xəbər verir ki, bu sözlərin müəllifi, Azərbaycanın Xalq yazıçısı Afaq Məsud qələbə sevincini bölüşərək daha sonra deyib:

"Gözün aydın olsun, əziz xalqım!" - deyirəm. Torpaqlarımız uğrunda canından keçmiş bütün şəhidlərimizə "Məkanınız cənnət olsun, igidlərim!" - deyirəm, - "Vətən, xalq heç bir zaman bu şəhidlik zirvəsini unutmayacaq!" Bu qələbənin müəllifi - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Var ol, yaşa, Müzəffər Ali Baş Komandan! - deyirəm, - Azərbaycana tarixin ilk milli qələbəsini yaşadan, xalqa milli oyanış ruhunu bəxş edən, bu on yeddi ildə atılan müxalif daşlara məhəl qoymadan, tükənməz səbir və dözümlə addım-addım Qələbəyə aparan yolu məharətlə irəliləyən Böyük Sərkərdə!"

Azərbaycan.- 2020.- 11 noyabr.- S.13.